

# Türk Dövlətləri Təşkilatı yeni mərhələdə daha böyük uğurlar əldə edəcək

***Azərbaycan müstəqillik əldə etdikdən sonra türkdilli ölkələrlə, o cümlədən, Türkiyə ilə sıx əlaqələrə və əməkdaşlığa hər zaman xüsusi önəm verib, ortaq milli-mədəni tarixi, dili və mənəvi dəyərləri özündə birləşdirən türk xalqları və toplumları ilə əlaqələrin inkişafını diqqət mərkəzində saxlayıb.***

> ***Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyətimizdir, bizim köklərimizdir.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Bu dostluq, qardaşlıq münasibətləri Qarabağ münaqişəsindən əvvəl olduğu kimi, savaş dövründə də aydın nəzərə çarpdı. Türkiyə artıq indi keçmişdə qalan "Dağlıq Qarabağ" münaqişəsində tarixi, hüquqi, mənəvi ədalətin bərqərar olunması istiqamətində aparılan mübarizədə səsimizə daim səs verirdi. Vətən müharibəsi günlərində də bu, özünü qabarıqtərdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan savaşın ilk günündən sonunadək Azərbaycana siyasi-mənəvi dəstəyini əsirgəmədi. Qardaş ölkənin Cümhurbaşqanının "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri qələbənin qazanılmasında çox böyük rol oynadı. Bu, 30 ilə yaxın bir müddətdə torpaqlarımızı işğal altında saxlayan Ermənistanın havadarlarının Azərbaycanın haqq-ədalət mübarizəsinə müdaxilə cəhdlərini alt-üst etdi. Həmin dövrdə belə həmrəylik nümayişi xalqımız tərəfindən yüksək qiymətləndirildi, qardaşlıq və əməkdaşlıq münasibətlərinin daha da güclənməsinə öz müsbət təsirini göstərdi.

Məhz bu cür köməyin, bu cür dəstəyin nəticəsi idi ki, Ermənistan müharibə zamanı bəzi dünya güclərinin dəstək imkanlarından məhrum oldu. Otuz il bundan əvvəl ərazilərimizi havadarlarının köməyi, təhdidləri ilə qəsb edən düşmən bu dəfə döyüş meydanında qəhrəman Azərbaycan əsgəri ilə üz-üzə qaldı və rüsvayçı şəkildə uduzdu.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibəsində haqlı olaraq bildirdi ki, əgər toqquşmaların ilk saatlarında Türkiyədən bu cür siyasi-mənəvi dəstək mesajları gəlməsəydi, bəlkə də bu işlərə başqaları qarışa bilərdi: "Türkiyənin bu mesajları hər kəsə "dur" dedi. Azərbaycan tək deyil. Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan–Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk. Heç kim bizim işimizə qarışmasın... Sadəcə, biz deyirik ki, bizə də dəyməyin, kənarda durun. Dost olaq, tərəfdaş olaq, işbirliyi edək. Amma sizinki sizdə, bizimki bizdə. Biz bunu istəyirik və buna haqqımız çatır".

Azərbaycan hələ müharibədən əvvəl terroru, təxribatı hər zaman dövlət siyasətinə çevirən Ermənistanın ədalət mübarizəsində – döyüşlərdə kənar qüvvələrsiz ordumuzun qarşısında aciz durumda qalacağını, məğlubiyyətə uğrayacağını yaxşı bilirdi. Qardaş Türkiyənin açıq çağırışlarından çəkinən işğalçının dəstəkçiləri tərəfindən himayə olunmayan Ermənistan döyüş meydanında məğlubiyyətin heyfini yenə də faşist xislətinə xas terrorla, təxribatla çıxmağa üstünlük verdi. Düşmən Gəncə, Tərtər, Bərdə və digər dinc ərazilərdə nə qədər mülki sakinimizin – körpələrin, qadınların, yaşlıların ölümünə bais oldu, yaşayış evlərini, infrastrukturu dağıtdı.

O günlərdə xalqımız erməni faşizminin bu cür barbarlığı, vandallığı, vəhşiliyi qarşısında sınmadı. Daha da möhkəmləndi, dövlətimizin başçısı ətrafında sıx birləşdi. Bu ağır, sarsıntılı məqamlarda da Türkiyə Azərbaycanın yanında dayandı, düşmənə varlığını hiss etdirdi, Ermənistanın terrorçu siyasətinə qarşı bəyanatlar verdi. Bir sözlə, qardaş Türkiyə İkinci Qarabağ savaşında, hətta ən kritik hadisələr zamanı da ölkəmizi tək buraxmadı, diqqətdən kənarda qoymadı, "Qarabağ məsələsi Azərbaycan qədər Türkiyə üçün də şərəf məsələsidir" söylədi.

Vətən müharibəsi günlərində qardaş ölkə İzmir şəhərində baş verən təbii fəlakətdən – zəlzələdən ağır yara alsa da, Azərbaycanı yenə də tək buraxmadı. Türkiyə Respublikasının rəsmiləri Azərbaycana dəstəyini davam etdirdilər. Bu ölkənin Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun, Türkiyə Gənclər Fondunun, Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin nümayəndələrinin Gəncəyə gəlişləri, Türkiyə parlamentində təmsil olunan 4 partiyanın Azərbaycana birmənalı dəstək verməsi iki ölkə arasındakı dostluğun sarsılmaz tarixçəsinə çevrildi.

Azərbaycan xalqı təbii ki, bütün bunları heç zaman unutmayacaq. Evlərin eyvanlarında, iş yerlərində, avtomobillərində, küçələrdə Azərbaycan bayrağı ilə yanaşı Türkiyə bayrağının da dalğalandırılması iki qardaş, dost ölkənin birliyi, vəhdəti kimi, tarixin şanlı səhifəsi kimi yaddaşlarda yaşayacaq.

Bu tarixi anlar Azərbaycan–Türkiyə bağlılığının dərin köklərə əsaslandığını, dostluğun, əməkdaşlığın dərin rişələrdən qaynaqlandığını bütün dünyaya göstərdi. Bu siyasi və mənəvi əzmkar dəstəklə həm Azərbaycan, həm də Türkiyə kənar manevrlərə qarşı qətiyyətli mübarizə apardı.

Türkiyə Azərbaycanın qələbəsindən sonra ərazidə sülhün qorunması prosesində də yaxından iştirak etdi. Bu məqsədlə yaradılan Monitorinq Mərkəzində qardaş ölkə də təmsil olundu.

Beləliklə, Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə, əsrlərin o üzündən gələn ənənələrə əsaslanaraq, bütün dünya üçün bir nümunəyə çevrilib. Bunu qısqanan, bundan əndişələnən hər hansı bir qüvvə isə heç nəyə nail ola bilməyib.

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir. Bu il oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində ölkə rəhbərimiz deyib: "Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən. Təbii ki, mən bu işlərə qarışa bilmərəm. Amma bir insan kimi buna biganə qala bilmərəm. Çünki onun Türkiyə üçün gördüyü işlər genişmiqyaslıdır və bu gün Türkiyəni onun kimi sevən, onun maraqlarını müdafiə edən, öz sinəsini irəli verən ikinci bir insan yoxdur Türkiyədə. Bunu hər kəs bilməlidir. Azərbaycanda bunu hər kəs bilir.

*(ardı 2-ci səhifədə)*

# Türk Dövlətləri Təşkilatı yeni mərhələdə daha böyük uğurlar əldə edəcək

*(əvvəli 1-ci səhifədə)*

Türkiyədə də bir çoxları bilir, amma bilməyənlər üçün də mən demək istəyirəm ki, onlar da görsünlər. Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm. Ona bundan sonra da müvəffəqiyyətlər diləmək istəyirəm. Onun sözləri, onun addımları, onun varlığı bütün türk dünyası üçün önəmlidir və türk dünyasının birləşməsi, işbirliyinin dərinləşməsi istiqamətində biz bundan sonra da böyük səylər göstərəcəyik".

Dövlətimizin başçısı torpaqlarımızın azad edilməsi uğrunda aparılan Vətən müharibəsində böyük sərkərdə məharətinə, eləcə də, prezidentlik fəaliyyəti dövründə Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının Qərarı ilə "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması üçün Prezident Rəcəb Tayyib Ərdoğana, eləcə də, görüşdə iştirak edən digər dövlət-hökumət başçılarına dərin təşəkkürünü bildirib: "Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır".

Prezident İlham Əliyev çıxışında İkinci Qarabağ savaşında göstərilən əzmkarlıq, iradə, rəşadət sayəsində Azərbaycanın böyük zəfərə imza atdığını, xalqımızın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər Türkiyə rəhbəri tərəfindən göstərilən dəstəkdən və mənəvi dayaqdan güc aldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı hörmətli Cümhurbaşqanının bu savaşda Azərbaycanı tək buraxmadığını bir daha qeyd edib.

Azərbaycan Prezidenti çıxışında, həmçinin qardaş ölkənin Türk Dövlətləri Təşkilatındakı sədrliyi dövründə Rəcəb Tayyib Ərdoğanın səyi ilə ölkələrimiz arasındakı birlik, həmrəylik, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulmuş əlaqələrin daha da möhkəmlənəcəyinə və türk dünyasının lideri olan Cümhurbaşqanının bu işdə uğur qazanacağına əminliyini də vurğulayıb: "Çünki onun siyasəti və liderliyi sayəsində Türkiyə son illər ərzində böyük və şərəfli yol keçmiş, dünya miqyasında güc mərkəzinə çevrilmiş və təkcə bölgədə yox, dünya miqyasında söz sahibinə çevrilmişdir. Hesab edirəm ki, Türkiyənin gücünü – siyasi, iqtisadi, hərbi gücünü, indi dünyada bilməyən yoxdur və əziz qardaşımın liderliyi sayəsində Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir. Çünki türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir. Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir və buna görə hər birimiz əziz qardaşıma minnətdar olmalıyıq...".

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına Azərbaycanın ikiillik sədrlik dönəmində Türk dünyasının birləşməsi üçün böyük səylər göstərildiyi barədə də danışıb. Ortaq köklərə, dilə, dinə, ortaq maraqlara əsaslanan bu birliyin hər zaman möhkəmlənməyə zəruri ehtiyacı olduğunu xatırladan dövlətimizin başçısı sözügedən dövrdə bu istiqamətdə Azərbaycan tərəfindən bir çox tədbirlər keçirildiyini vurğulayaraq, hazırda daha bütöv, daha birləşmiş şəkildə gələcəyə addımlar atıldığını, bu görüş çərçivəsində isə adı çəkilən şuranın təşkilata çevrildiyini və qurumu daha böyük uğurlar gözlədiyini bildirib. Ölkə rəhbəri bu əminliyinin təsadüfi olmadığını vurğulayaraq deyib: "Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir...".

Dövlətimizin başçısı çıxışında bu günlərdə xalqımızın Qarabağın azad olunmasının birinci ildönümünü sevinc və qürur hissi ilə qeyd etdiyini vurğulayaraq, Azərbaycanın təxminən 30 illik işğala son qoyduğunu, Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi və kağızda qaldığı qətnamələri yerinə yetirdiyini və beləliklə, tarixi ədalətin, beynəlxalq hüququn bərpasına nail olduğunu diqqətə çatdırıb. Eyni zamanda, Ermənistanın işğal dövründə şəhər və qəsəbələrimizi yerlə yeksan etdiyini, maddi-mədəni abidələrimizi dağıtdığını, yeraltı, yerüstü sərvətlərimizi taladığını bildirib. Ölkə rəhbəri hazırda həmin ərazilərdə – Şərqi Zəngəzur və Qarabağda genişmiqyasl bərpa-quruculuq işləri aparıldığını və bu layihələrin icrasına türkdilli dövlətlərin, xüsusilə Türkiyənin bir çox şirkətlərinin fəal qoşulduğunu diqqətə çatdırıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Azərbaycanın haqq işinə digər türkdilli dövlətlər tərəfindən də müəyyən səviyyələrdə dəstək verildiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ticarət və Sənaye Palatasının ötən il noyabrın əvvəlində Bakıda keçirilən növbədənkənar toplantısının bunun bir nümunəsi olduğu diqqətə çatdırılıb. Xatırladaq ki, həmin tədbirdə iştirak üçün paytaxtımızda qonaq olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi Azərbaycan Prezidenti qəbul edərkən dediyi "Biz bunu bizə göstərilən dəstək və həmrəylik əlaməti kimi qəbul edirik, buna görə sizə təşəkkür edirik. Bu, növbədənkənar toplantıdır və bunun əsas məqsədi ölkəmizə mənəvi dəstəyin göstərilməsidir", – sözlər toplantının xüsusi önəm daşıdığını göstərdi.

Bütün bunlar Azərbaycan Prezidentinin illər əvvəl də bəyan etdiyi kimi, XXI əsrin Türk dünyası əsrinə çevrilməsi üçün atılan xoş addımlardır. Eyni soy-kökə, ortaq tarixə, mədəniyyətə və müasir dünyamızda üst-üstə düşən iqtisadi-siyasi maraqlara malik türkdilli ölkələrin bir-birinin yanında olmasıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə göstərilən səylər bəhrəsini verir, Azərbaycan istər regionda, istərsə də böyük bir coğrafiyanı əhatə edən türk dünyasında önəmli layihələrə imza atır ki, bu, həm dövlətin iqtisadi gücünü, həm də Türk dünyasına olan sevgisini göstərir.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*